# XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏNİN YARADICILIĞINDA KİTABXANA MƏDƏNİYYƏTİ VƏ KİTABXANAÇI SURƏTİ

**G.SƏFƏROVA**
***Bakı Dövlət Universiteti Magistrant***

*Məqalədə xalq şairi Bəxtiyar Vahabzadənin kitabxanaya dair fəlsəfi fikirləri, kitabxanaya və kitabxanaçıya verdiyi dəyər və kitabxananın cəmiyyətin həyatında rolu haqqında düşüncələri əks olunmuşdur. Burada şairin yaradıcılığında və həyatında mühüm rol oynayan şəxsi kitabxanası haqqında da məlumat verilmişdir.*

Mədəniyyət insanın tərbiyə və təhsilində, intellektual inkişafında, biliklərə yiyələnməsində, cəmiyyətin əldə edib topladığı biliklərin, təcrübənin, vərdişlərin, habelə mənəvi sərvətlərin gələcək nəsillərə çatdırılmasında mühüm rol oynayır. Təhsil, tərbiyə, xalq maarifinin inkişafı, mədəni quruculuq sahəsində görülən işlər cəmiyyətin mədəni səviyyəsinin mühüm göstəricisidir. Mədəniyyətin yaradıcısı olan insan həm də onun məhsulu kimi meydana çıxır. Mədəniyyətin ayrılmaz tərkib hissələrindən biri də kitab və kitabxanalardır. Çox qədim dövrlərdə yaranmış kitab və kitabxanalar bəşər mədəniyyətinin inkişafına, zənginləşməsinə çox böyük töhfələr vermişdir (2, 14).

Kitabxanalar uzun illər ərzində mühüm sosial funksiyaları həyata keçirməklə yanaşı, insan amilinin formalaşmasında da yaxından iştirak etmiş, hərtərəfli inkişaf etmiş yetkin şəxsiyyətin tərbiyə olunub yetişdirilməsində vacib elm, təhsil, tərbiyə, informasiya, mədəniyyət müəssisəsi və sosial institut kimi əvəzsiz rol oynamışdır. Mövcud çətinliklərə baxmayaraq kitabxanalar bu gün də öz təxirəsalınmaz vəzifələrini şərəflə davam etdirir.

Kitabxana kitabdan ictimai istifadəni təşkil edən elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsidir. Müasir şəraitdə kitabxanalar informasiyanın xalqa çatdırılmasında kommunikasiya vasitəsi kimi olduqca böyük rol oynayır, cəmiyyətin informasiyalaşdırılması prosesində əhəmiyyətli iş görür. İnformasiyalaşdırılmış cəmiyyət isə bəşəriyyətin uğurlu gələcəyidir. Artıq dünyanın bütün qabaqcıl ölkələri və xalqları tərəfindən dərk və qəbul edilmişdir ki, bəşəriyyətin uğurlu gələcəyi, elmi, texniki və sosial tərəqqisi naminə mühüm iş görən kitabxanalar olmadan inkişaf etmək mümkün deyil (5, 131).

1993-cü ildə görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycan xalqının gələcək taleyində, dövlətçiliyimizin möhkəmləndirilməsində mühüm tarixi hadisəyə çevrildiyi kimi mədəniyyətimizin mühüm tərkib hissəsi olan kitabxana işinin yenidən qurulmasında və inkişafında da yeni mərhələnin başlanğıcı oldu.

Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində iqtisadiyyatla yanaşı, mədəni quruculuq sahəsində də əsaslı islahatlar aparılmış, təhsil, elm, mədəniyyət və incəsənətin yenidən qurulması və inkişafı üçün olduqca böyük tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər içərisində kitabxana quruculuğu sahəsində həyata keçrilən tədbirlər daha geniş miqyas almışdı.

Tarixdən məlumdur ki, dünyanın görkəmli dövlət, elm və mədəniyyət xadimləri kitabxanalar haqqında mühüm elmi, mədəni əhəmiyyət kəsb edən çox qiymətli fikirlər söyləmişlər. Kitabxanaların bəşəriyyətin, ayrı-ayrı xalqların, dövlətlərin inkişafında oynadığı böyük tarixi missiyanı yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev deyir: " Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daim hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir". Mübaliğəsiz demək olar ki, H.Əliyevin böyük fəlsəfi mahiyyət kəsb edən bu fikirləri, dünya mədəniyyəti tarixində kitabxanaya verilən ən qiymətli kəlam, dərin metodoloji əhəmiyyət kəsb edən fikirlərdir (2, 17).

Ulu öndərimizin kitabxanaya verdiyi bu qədər önəmin və diqqətin əsas səbəbi məhz bu sahəyə sözün əsl mənasında ömrünü həsr etmiş, apardığı hər bir tədqiqatında yenilikləri aşkara çıxarmış, Azərbaycanda kitabxanaşünaslıq məktəbinin əsasını qoymuş, kitabxanaşünaslıq elminin canlı epopeyasını yaratmış görkəmli şəxsiyyət, Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor Abuzər Xələfovun çəkdiyi zəhmətin nəticəsidir. Prof. A.Xələfovun yazdığı fikrə görə, kitabxana bütövlükdə cəmiyyətə, onun hər bir üzvünə məxsus olan, oxucuların informasiya və mədəni tələbatını ödəmək üçün yaradılmış hərtərəfli, formalaşdırılmış və qaydaya salınmış fonda, müvafiq maddi-texniki bazaya, peşəkar kitabxanaçılara malik olan sosial müəssisədir.

Kitabxana haqqında söylənilən fikirlərdən aydın olur ki, kitabxana informasiya mənbəyi olmaqla yanaşı, ədəbiyyat nümunələrini özündə əks etdirən və onları oxucularının müntəzəm istifadəsinə verən bir müəssisədir. Əgər kitabxana bütünlükdə müxtəlif sahəli ədəbiyyatı əhatə edirsə, kitabxana mövzusunda danışarkən ədəbiyyatçıların da elmi-tədqiqat işləri, yaradıcılığı ilə tanış olmaq mütləqdir. Məhz belə görkəmli şəxsiyyətlərdən biri də varlığı kitabla, oxumaqla yoğrulmuş, kitabsız bir gününü də belə təsəvvür etməyən və kitabxananı bütün elmlərin toplandığı məkan adlandıran, xalqın bəxtiyar şairi olan Bəxtiyar Vahabzadədir.

Şair özünün kitablarında da dəfələrlə qeyd edirdi: "Sözlər ayrılıqda məfhumdur, adlardır. Söz toplusu fikirdir, düşüncədir, mətləbdir. Dünyanın özü də fikirdir, düşüncədir. Düşüncədən, fikirdən kənar bədii əsər yalnız söz yığınıdır. Əsil sənətkar düşünə-düüşünə yazdığı kimi, əsil oxucu da düşünə-düşünə oxumalıdır" (9, 69) .

Müasir dövrdə klassik yazıçıların, şairlərin, filosofların zəngin ədəbi-bədii irsini öyrənib üzə çıxarmaq, onlardan xalqımızın mənəvi və estetik tərbiyəsində istifadə etmək böyük əhəmiyyətə malikdir. Belə şəxsiyyətlərin əsərləri ilə bərabər onların şəxsi kitabxanalarını, bu kitabxanalarda olan kitab və əlyazmaları, onların məktublarını, həmin şəxslər haqqında xatirələri öyrənmək oxucular və bu sahədə tədqiqat aparanlar üçün mühüm mənbədir. Bu zaman əldə olunan faktlar tədqiq olunan şəxsin özü, yaradıcılığı, maraq dairəsi, elmi dünyagörüşü haqqında tək tədqiqatçı üçün yox, həm də geniş oxucu qrupu üçün maraqlı məlumatlar verir.

Bu mənada Bəxtiyar Vahabzadənin yaradıcılığı müstəsna əhəmiyyət kəsb etdiyi kimi, evində möhtəşəm şəxsi kitabxanasının olması da onun haqqında aparılan tədqiqatın əsas özəyini təşkil edir. Çünki belə kitabxanaya sahib olmaq sadəcə kitab toplusu deyil, şairin zəngin mənəvi aləmini, geniş elmi dünyagörüşünü, yüksək səviyyəli mədəniyyətini sübut edən faktdır.

Kitabxana mövzusunda daim böyük qürur hissi ilə danışan xalq şairi hətta müsahibələri zamanı dəfələrlə bildirmişdir: "Öz şəxsi kitabxanamda müsahibə verərkən çox rahatlıq tapıram. Çünki bura mənim ruhuma yaxın olan, əhvalımı yaxşılışdıran, bir sözlə mənə ən doğma olan yeganə məkandır". Özünün qeyd etdiyinə görə xalq şairinin şəxsi kitabxanasında kitabların sayı çox olmaqla yanaşı, həmçinin müxtəlif elm sahələrini əhatə etməsinə görə də çox zəngindir. Şairin söhbət zamanı bildirdiyi fikrə əsasən Bəxtiyar müəllimin şəxsi kitabxanasında əsas üstünlük verdiyi dini kitablardır. Hər çıxışının sonunda şair öz xalqından xahiş edirdi ki, çalışaq müsəlmanlığımızı qoruyaq, din xadimlərimizi, alimlərimizi tanıyaq, onların din haqqında kəlamlarını, fikirlərini unutmayaq. Hər bir azərbaycanlı unutmamalıdır ki, o, hər şeydən öncə müsəlmandır.

Xalq şairinin şəxsi kitabxanasından danışarkən bir faktı da qeyd etməliyik ki, onun kitabxanasındakı kitab şkafının qarşısında doğma Azərbaycanın vətən, torpaq yolunda canlarını fəda edən igid oğullarının, qəhrəmanlarının, habelə türk millətinin xilaskarı Mustafa Kamal Atatürkün, Vahabzadənin əsərlərini rus dilinə tərcümə edən rus şairi Yevtuşenkonun (rus şairinin şeirlərini də Bəxtiyar müəllim Azərbaycan dilinə tərcümə edib) və digər xalqların tanınmış insanlarının şəkli düzülmüşdür.

Bəxtiyar Vahabzadə sözün əsl mənasında kitaba və kitabxanaya həm bir yazıçı kimi, həm də bir oxucu kimi qırılmaz tellərlə bağlı idi. Məhz buna görə də əsərlərində və çıxışlarında kitabxana məsələlərinə dönə-dönə toxunmuşdu.

Kitab, kitabxana və kitabxanaçı haqqında fikir söyləyən, yaradıcılığında bu barədə müəyyən qədər məlumat verən yaradıcı şəxslər tarix boyu çox olmuşdur. Lakin Bəxtiyar Vahabzadəni belə şəxslərdən fərqləndirən cəhət odur ki, o, bu barədə şeirləri, məqalələri və müsahibələri ilə yanaşı, yaradı-

cılığının ən bariz nümunəsi hesab etdiyi "Sadə adamlar" adlı möhtəşəm poeməsını bütünlükdə kitab, kitabxana və kitabxanaçı mövzusuna həsr etmişdir.

Xalq şairi bu poemada kitabxana mühitini, kitabxanaçı surətini o qədər ustalıqla əks etdirmişdir ki, Kitabxanaşünaslıq elminin Azərbaycanda ilk yaradıcısı olan prof Abuzər Xələfov müsahibə zamanı "hansı əsərin qəhrəmanı sizə yaxındır?" sualının cavabında məhz bu poemanın qəhrəmanı olan Ülkər adlı kitabxanaçını özünə ideal hesab etdiyini bildirmişdir (6, 7).

Bu poema Çeşməli kəndində cərəyan edən hadisələrdən bəhs edir. Bu əsərdə diqqəti cəlb edən cəhətlər odur ki, Çeşməli kəndinə təyinatla kitabxanaçı göndərilən Ülkər adlı bir qız kitabxanada işlədiyi müddətdə gördüyü işlər sayəsində qəhrəmanların, yəni bu kəndin əhalisinin mənəvi cəhətdən təmizlənməsində, ucalmasında, onların əsl insan kimi formalaşmasında, öz peşələrini sevməsində, qürurla yaşamasında böyük rol oynamışdı.

Umumiyyətlə, şairin yaradıcılığından görünür ki, onun üçün azadlıq romantik bir məfhum deyil, xalqın və vətənin əsl səadəti deməkdir. Özünün "Sadə adamlar" poemasında carçısı olduğu fikirlər də məhz insana dəyər vermək, onun savadlanmasına, maariflənməsinə çalışmaqdır. Poemanı analiz etdikdə öz peşəsini böyük ehtiram hissi ilə sevən gənc bir kitabxanaçının xalqın dərdinə şərik olub, onların problemlərinin həll olunması üçün var-güclə çalışdığının şahidi oluruq.

Poemanı oxuduqca kitabxananın kiçik bir kənddə oynadığı rolun nə qədər böyük olduğunun şahidi oluruq. Kənddə kitabxana açılan kimi kənd sakinləri kiatabxanaya üzv olmaq üçün növbələrə düzülür və daimi oxucusu olaraq hər gün kitabxanaya gəlirlər. Gənclərin kitaba olan maraqları o qədər böyük idi ki, onlar hətta gecələr də yatmırdı. Sözün əsl mənasında qaranlıq kəndə bir işıq, nur gəlmişdi.

*Kitablar üstündə döyünür ürək,*
*Sanki pərvanədir, atılır oda.*
*Kitablardan axır gecə sübhədək*
*Bu evdən süzülən o gur işıq da.*
*Danışa bilərsən, gülə bilərsən*
*Qaranlıq otaqda çıraqsız belə,*
*İşıq tellənməsə başın üstdə, sən*
*Danışa bilməzsən kitablar ilə (7, 342).*

Bəxtiyar Vahabzadə bu poemada nəinki kitabxanada aparılan iş prosesini, hətta kitabxanada mövcud olan kitab rəflərini, katolaq və kartoteka sistemini, çap məhsullarının düzülüş qaydasını elə ustalıqla tərrənüm etmişdir ki, əsəri oxuyarkən bu fikirləri bir ədəbiyyatşünas şair yox, kitabxanaşünaslıq sahəsinin mütəxəssisi kimi düşünürük. Çünki yalnız oxucu kimi kitabxanadan

istifadə edən şəxs kitabxananın struktur və quruluşuna o qədər də bələd ola bilməz. Məhz bu göstəricilər o düşüncələrdən xəbər verir ki, xalq şairi kitabxanaya yalnız böyük rəğbət bəsləməklə kifayətlənməmiş, həmçinin kitabxanaşünaslığı bir elm kimi yüksək səviyyədə qiymətləndirmiş, onun müxtəlif sahələrindən geniş məlumata malik olmuşdur.

Bəxtiyar Vahabzadənin kitabxana ilə bağlı ən dəyərlərli fikirlərindən biri odur ki, şair kitabxananı yalnız bilik, informasiya mənbəyi yox, insanların mənəvi dünyasının cilalanmasında, dünyagörüşünün artmasında, gənclərin nəyin naminə yaşamaq hissinin təlqin etməsində əvəzsiz rol oynayan mədəniyyət ocağı hesab edir. Kitabı işıq, kitabxananı ziya, nur mənbəyi hesab edən xalq şairi yaradıcılığının hər bir anında bu fikri təsdiqləməyə çalışmışdır. Kitabxananı mədəniyyət ocağı, təlim-tərbiyə müəssisəsi və insan ruhunu rahatlaşdıran mənbə hesab etməsi xalq şairinin bir ədəbiyyatçı kimi yanaşma tərzi ilə yanaşı, kitabxanaşünaslıq sahəsində uzun illər tədqiqat aparan alimlərin fikri ilə üst-üstə düşür.

Bu fikirlər öz təsdiqini kitabxanaşünaslıq məktəbinin beşiyi başında duran, daim yeniliklər axtarışında olan professor Abuzər Xələfovun apardığı tədqiqatlar zamanı kitabxana haqqında təsdiqlədiyi fikirlərdə də tapmışdır. Alim "Kitabxanaşünaslığa giriş" dərsliyində qeyd etmişdir ki, kitabxanaların zaman keçdikcə cəmiyyətin informasiya təminatında yaxından və demək olar ki, alternativsiz iştirakı onları kommunikativ sistemlərin əsas təminat bazasına çevirmişdir ki, bu da cəmiyyətin inkişafında kitabxanaların elm, informasiya, təhsil və tərbiyə funksiyaları ilə yanaşı, mənəvi və humanitar funksiyalarının yüksəldilməsini də tələb edirdi. Kitabxana tarixinə nəzər saldıqda məlum olur ki, əsrlər boyu böyük və zəngin fondları yaradan, onları qoruyub saxlayan, bəşəriyyətin bilik və təcrübəsini nəsildən-nəslə çatdıran kitabxanalar qiymətli humanitar sərvətlərin inkişafına məqsədyönlü istiqamət vermişdir. Kitabxana kitab və insanın birgə fəaliyyətində təzahür etdiyindən humanitar müəssisə kimi xarakterizə olunur. Kitabxanalar bəşəriyyətin yaratdığı institutlar olduğu üçün bilavasitə cəmiyyətin bir hissəsi kimi insanlara özlərini və dünyanı dərk etməkdə köməklik göstərmək yolu ilə cəmiyyətin təkmilləşməsinə yardım etməyi qarşısına məqsəd qoymuşdur" (4, 143).

## ƏDƏBİYYAT

*1. Xələfov A.A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir. Bakı, 2009, 185 s.*

*2. Xələfov A.A. Cəmiyyət və mədəniyyət // Kitabxanaşünaslıq və İnformasiya (elmi-nəzəri və təcrübi jurnal). Bakı: BDU, 2010, №1. 8-14 s.*

*3. Xələfov A.A. Kitabxanaşünaslıq fəlsəfəsi // Kitabxanaşünaslıq və Biblioqrafiya (elmi-nəzəri və təcrübi jurnal). Bakı: BDU, 2008, №1. 5-26 s.*

*4. Xələfov A.A. Kitabxanaşünaslığa giriş / Dərslik: 3 cild. Bakı, BDU, 2001, 400 s.*

*5. İbrahimov M. Üfüqlərə açıq yol // "Kommunist", 1964, 29 iyul.*

*6. Kitablar içində keçən ömür: Müsahibə (80 yaşın astanasında) // Bakı: BDU, 2011, 21 yanvar.*

*7. Vahabzadə B. Əsərləri. 1-ci cild // Bakı: Azərbaycan, 2001, 544 s.*

*8. Vahabzadə B. Əsərləri. 4-cü cild // Bakı: Çaşıoğlu, 2002, 608 s.*

*9. Vahabzadə B. Sənətkar və zaman // Bakı: Gənclik, 1971, 312 s.*

## LIBRARY CULTURE AND LIBRARIAN ROLE IN BAKHTIYAR VAHABZADEH ACTIVITY

**G. SAFAROVA**

***SUMMARY***

*In this article were reflected the philosophic thoughts of Bakhtiyar Vahabzadeh, national poet, his opinion about the value of library and its role in the life of society. As well as, there is information about the personal library of poet which played an important role in his life and activity. At the same time, the wealthy literary heritage of the poet was researched; his very important thoughts were well-grounded.*

## БИБЛИОТЕЧНАЯ КУЛЬТУРА И ОБРАЗ БИБЛИОТЕКАРЯ В ТВОРЧЕСТВЕ НАРОДНОГО ПОЭТА БАХТИЯРА ВАХАБЗАДЕ

**Г. САФАРОВА**

***РЕЗЮМЕ***

*В этой статье отражены философские мысли народного поэта Бахтияра Вахабзаде о библиотеке и его мысли о роли библиотеки в жизни общества. А также дана информация о частной библиотеке поэта, сыгравшая незаменимую роль в его жизни и творчестве. В то же время в статье исследованы богатое литературное наследство поэта и представленые его существенные мысли.*